# Məntəqə seçki komissiyası üzvlərinin sertifikatlaşdırılması üçün imtahan testləri

İHHŞ Seçki Sistemlərinin İnkişafı, İslahatları və Tədris Mərkəzi tərəfindən hazırlanmışdır

2024-cü il

**Ümumi məlumat**

Gürcüstan Üzvi Qanununun "Gürcüstanın Seçki Məcəlləsi" 24-cü maddəsinin $6^3$-ci bəndinin tələblərinə uyğun olaraq, sertifikatlaşdırma imtahan testlərinə yalnız Gürcüstan Üzvi Qanunundan "Gürcüstanın Seçki Məcəlləsi" (bundan sonra – Seçki Məcəlləsi) və Gürcüstan Mərkəzi Seçki Komissiyasının 3 fevral 2012-ci il tarixli 3/2012 saylı qərarı ilə təsdiq edilmiş Məntəqə Seçki Komissiyasının reglamentindən aid olan məsələlər daxildir.

87 test hazırlanıb (məntəqə seçki komissiyasının reqlamentində əksini tapan tənzimlənmə daha çox Seçki Məcəlləsinin tənzimlənməsi ilə üst-üstə düşdüyü nəzərə alınmaqla, testlərin əsaslarına yalnız Seçki Məcəlləsinin müvafiq maddələri daxil edilib. 14 sayli test istisna olunur, onun əsasına Məntəqə seçki komissiyasının reqlamenti qeyd olunub, çünki tənzimlənmə qeyd olunan qanunla uyğun olan aktla müəyyən edilmişdir).

*Mündəricat*

*I Fəsil.  Məntəqə seçki komissiyasının statusu, məntəqə seçki komissiyasının komplektləşdirilməsi qaydası* ........... *3*

*II fəsil.  Seçkiqabağı kampanya ilə/təşviqatla bağlı məhdudiyyətlər* ........ *4*

*III Fəsil. Məntəqə seçki komissiyasında icraatın aparılması qaydası* ........ *5*

*IV Fəsil. Məntəqə seçki komissiyasının hüquqi aktları* ........ *5*

*V Fəsil. Seçicilərin məlumatlandırılması - seçici vəsiqələrinin  paylanması* ........ *6*

*VI Fəsil. Məntəqə seçki komissiyasının səsvermə günü fəaliyyəti* ........ *6*

*VII Fəsil. Məntəqə seçki komissiyası tərəfindən səsvermənin nəticələrini yekunlaşdıran protokolun tərtib edilməsi* ........ *16*

*VIII Fəsil. Seçki məntəqəsində olmaq hüququ olan şəxslər və onların səlahiyyətləri* ........ *17*

*IX Fəsil.Məntəqə seçki komissiyası üzvünün/rəhbərinin məsuliyyət tədbirləri* ........ *18*

## I Fəsil. Məntəqə seçki komissiyasının statusu, məntəqə seçki komissiyasının komplektləşdirilməsi qaydası

1. Aşağıdakılardan hansı mülahizə düzgündür?

- Məntəqə seçki komissiyası Gürcüstanın seçki adminsitrasiyasının daimi fəaliyyət göstərən ərazi orqanıdır və MSK və ali dairə seçki komissiyası tərəfindən təyin edilmiş/seçilmiş şəxslərdən yaradılır.
- Məntəqə seçki komissiyası Gürcüstanın seçki administrasiyasının müvəqqəti ərazi orqanıdır və seçki məcəlləsi ilə müəyyən edilmiş subyektlərdən, MSK və ali dairə seçki komissiyası tərəfindən təyin edilmiş/seçilmiş şəxslərdən yaradılır (26.1)
- Məntəqə seçki komissiyası Gürcüstanın seçki administrasiyasının müvəqqəti ərazi orqanıdır və yalnız MSK tərəfindən təyin olunan şəxslərdən yaradılır.
- Məntəqə seçki komissiyası Gürcüstanın seçki administrasiyasının daimi fəaliyyət göstərən ərazi orqanıdır və yalnız ali dairə seçki komissiyası tərəfindən təyin olunan şəxslərdən yaradılır.

2. Məntəqə seçki komissiyası neçə üzvdən ibarətdir?

- 17 üzvdən çox olmamalıdır. (24.1)
- 13 üzvdən çox olmamalıdır.
- 14 üzvdən çox olmamalıdır.
- 12 üzvdən çox olmamalıdır.

3. Məntəqə seçki komissiyasının:

- 8 üzvü Dairə Seçki Komissiyası tərəfindən seçilir, 9 üzvü isə üzv təyin etmək hüququ olan siyasi partiyalar tərəfindən təyin edilir. (24.1)
- 9 üzvü Dairə Seçki Komissiyası tərəfindən seçilir, 8 üzvü isə üzv təyin etmək hüququ olan siyasi partiyalar tərəfindən təyin edilir.
- 17 üzvü Dairə Seçki Komissiyası tərəfindən seçilir
- 17 üzvü isə üzv təyin etmək hüququ olan siyasi partiyalar tərəfindən təyin edilir.

4. Hansı mülahizə düzgündür?

- Məntəqə seçki komissiyasının rəhbər şəxsləri müvafiq dairə seçki komissiyası tərəfindən seçilir. (24.2)
- Məntəqə seçki komissiyasının rəhbər şəxsləri məntəqə seçki komissiyası tərəfindən məntəqə seçki komissiyasının ilk iclasında seçilir.
- Məntəqə seçki komissiyasının rəhbərlərini Gürcüstan Mərkəzi Seçki Komissiyasının sədri təyin edir.
- Məntəqə seçki komissiyasının rəhbərlərini müvafiq dairə seçki komissiyasının sədri təyin edir.

5. Hansı mülahizə düzgündür?

Məntəqə seçki komissiyası üzvünün sertifikatı tələb olunmur:

- seçki administrasiyası işçisinə dair sertifikatı olan şəxsdən.
- məntəqə seçki komissiyasının rəhbərinə dair sertifikatı olan şəxsdən.
- səlahiyyətli partiya tərəfindən təyin edilmiş məntəqə seçki komissiyasının üzvündən.

- bütün cavablar düzgündür (24.5[1])

6. Hansı mülahizə düzgündür?

Müsabiqədə iştirak edən şəxsdən məntəqə seçki komissiyası rəhbərinin sertifikatı tələb olunmur, əgər ki:
- seçki adminsirasiyasının məsul işçisi sertifikatına malikdir (25[1].6; 196[5]).
- məntəqə seçki komissiyasının üzvünün sertifikatı varıdır.
- ictimai işçi sertifikatına malikdir.
- cavabların heç biri düzgün deyil.

7. Hansı mülahizə düzgündür:
- seçki gününə son 25 gün qalmış məntəqə seçki komissiyasının üzvünü çağırmaq qadağandır.
- seçki gününə son 35 gün qalmış məntəqə seçki komissiyasının üzvünü çağırmaq qadağandır.
- seçki gününə son 30 gün qalmış məntəqə seçki komissiyasının üzvünü çağırmaq qadağandır.
- seçki gününə son 20 gün qalmış məntəqə seçki komissiyasının üzvünü çağırmaq qadağandır. (29.9)

8. Yeni yaradılmış məntəqə seçki komissiyası nə vaxt fəaliyyətə başlayır?
- 30-cu günündən seçki gününə qədər. (25.14)
- 35-ci günündən seçki gününə qədər.
- 40-cı günündən seçki gününə qədər.
- 34-cü günündən seçki gününə qədər

9. Məntəqə seçki komissiyası üzvlərinin səlahiyyətlərinə nə vaxt xitam verilir?
- komissiya yaradıldıqdan sonra 25-ci gündən gec olmayaraq.
- səsvermənin nəticələrinin yekun protokolu müvafiq dairə seçki komissiyası tərəfindən tərtib edildikdən dərhal sonra. (25.14)
- komissiya yaradıldıqdan sonra 30-cu gündən gec olmayaraq.
- səsvermənin nəticələrinin yekun protokolu müvafiq dairə seçki komissiyası tərəfindən tərtib edildikdən dərhal sonra.

## II fəsil. Seçkiqabağı kampanya ilə/təşviqatla bağlı məhdudiyyətlər

10. Seçki komissiyasının üzvü onu təyin etmiş subyektin nümayəndəsidir ya yox?
- bəli, seçki komissiyasının üzvü onu təyin etmiş subyektin nümayəndəsidir.
- xeyr, seçki komissiyasının üzvü onu təyin etmiş subyektin nümayəndəsi deyil. (8.21)
- bəli, seçki komissiyasının üzvü onu təyin etmiş subyektin nümayəndəsidi və bilavasitə onun tapşırıqlarını yerinə yetirirən qurumun nümayəndəsidir.
- xeyr, partiya tərəfindən seçilən üzvlər istisna olmaqla, seçki komissiyasının üzvü onu təyin etmiş subyektin nümayəndəsi deyil.

11. Hansı mülahizə düzgündür:
- Seçki komissiyasının üzvünün seçkiqabağı təşviqat aparmaq və təşviqatda iştirak etmək hüququ yoxdur. (45.4.a)

- Seçkiqabağı təşviqat aparmaq və təşviqatda iştirak etmək hüququna partiyalar tərəfindən təyin edilmiş məntəqə seçki komissiya üzvləri malikdir.
- Məntəqə seçki komissiyasının sədrinin seçkiqabağı təşviqat aparmaq və təşviqatda iştirak etmək hüququ vardır.
- Məntəqə seçki komissiyasının katibinin seçkiqabağı təşviqat aparmaq və təşviqatda iştirak etmək hüququ vardır.

## III Fəsil. Məntəqə seçki komissiyasında icraatın aparılması qaydası

12. Seçki Məcəlləsində nəzərdə tutulmuş hallardan əlavə, məntəqə seçki komissiyası seçki sənədlərini nə vaxta qədər qəbul edir, verir və qeydiyyata alır?

- iş günü saat 18:30-a qədər.
- iş günü saat 18:15-ə qədər.
- iş günü saat 18:45-ə qədər.
- iş günü saat 18:00-a qədər. (8.10)

13. Ərizəçi məntəqə seçki komissiyasından istənilən sənədi aldığını təsdiq edir:

- komissiya iclasının protokolunu imzalamaqla.
- qeydlər kitabını imzalamaqla.
- qeydiyyat jurnalına imzalamaqla. (8.12)
- bütün cavablar düzgündür.

14. Məntəqə seçki komissiyasında kim seçki sənədlərini, ərizələri, şikayətləri qəbul edir, verir və qeydə alır – qeydiyyatdan keçirir (səsvermə günü istisna olmaqla) ?

- komissiyanın katibi, komissiyanın katibi olmadıqda isə məntəqə seçki komissiyası sədrinin tapşırığı ilə məntəqə seçki komissiyasının üzvlərindən biri. (Məntəqə Seçki Komissiyasının Əsasnaməsi - 11.1)
- komissiya sədrinin müavini və ya komissiya sədrinin müavini olmadıqda isə məntəqə seçki komissiyası sədrinin tapşırığı ilə məntəqə seçki komissiyasının üzvlərindən biri.
- komissiyanın katibi və ya katibin öz səlahiyyətlərini həyata keçirməsi mümkün olmadıqda, bu funksiyanı məntəqə seçki komissiyası sədrinin müavini həyata keçirir.
- komissiyanın sədri, çünki məntəqə seçki komissiyasında seçki sənədlərinin, ərizələrin, şikayətlərin qəbulu, verilməsi və qeydə alınması və qeydiyyatan keçməsinə yalnız sədr cavabdehdir.

## IV Fəsil. Məntəqə seçki komissiyasının hüquqi aktları

15. Seçici səsvermə günü seçki məntəqəsinə gedə bilmədiyinə görə, nə etməlidir?

- daşınan seçki qutusu vasitəsilə səs vermək xahişi ilə səsvermə gününə bir gün qalmış saat 18:00-a qədər MSK-ya müraciət etməlidir.
- daşınan seçki qutusu vasitəsilə səs vermək xahişi ilə səsvermə gününə azı 2 gün qalmış dairə seçki komissiyasına müraciət etməlidir.
- daşınan seçki qutusu vasitəsilə səs vermək xahişi ilə səsvermə gününə ən geci 11 gün qalmış məntəqə seçki komissiyasına müraciət etməlidir. (33.2)

- daşınan seçki qutusu vasitəsilə səs vermək xahişi ilə səsvermə gününə bir gün əvvəl saat 18.00-a qədər məntəqə seçki komissiyasına müraciət etməlidir.

16. Hansı mülahizə doğrudur?

Səhhətinə görə seçki məntəqəsinə gedə bilməyən seçicilərin sayı məntəqə üzrə vahid seçici siyahısında olan seçicilərin 3 faizindən çox olmamalıdır. Göstərilən nömrə doldurulduqdan sonra seçicinin daşınan qutunun siyahıya daxil edilməsinin məqsədəuyğunluğu barədə qərar qəbul edir:

- Müvafiq Dairə Seçki Komissiyası. (33.4)
- Müvafiq məntəqə seçki komissiyası.
- Gürcüstan Mərkəzi Seçki Komissiyası.
- Müvafiq məntəqə seçki komissiyasının sədri.

## V Fəsil. Seçicilərin məlumatlandırılması - seçici vəsiqələrinin paylanması

17. Hansı mülahizə düzgündür?

- məntəqə seçki komissiyası səsverməyə ən geci 2 gün qalmış seçki məntəqəsinin ərazisində qeydiyyatda olan və seçici siyahılarına daxil edilmiş bütün seçicilərə seçici vəsiqəsini verir. (35.1)
- məntəqə seçki komissiyası səsverməyə ən geci 1 gün qalmış seçki məntəqəsinin ərazisində qeydiyyatda olan və seçici siyahılarına daxil edilmiş bütün seçicilərə seçici vəsiqəsini verir.
- məntəqə seçki komissiyası səsverməyə ən geci 12 saat qalmış seçki məntəqəsinin ərazisində qeydiyyatda olan və seçici siyahılarına daxil edilmiş bütün seçicilərə seçici vəsiqəsini verir.
- məntəqə seçki komissiyası səsverməyə ən geci 8 saat qalmış seçki məntəqəsinin ərazisində qeydiyyatda olan və seçici siyahılarına daxil edilmiş bütün seçicilərə seçici vəsiqəsini verir.

18. Səsvermədə iştirak etmək üçün seçici vəsiqəsinin olması məcburidir yoxsa yox?

- bu məcburidir, çünki seçici vəsiqəsinin qəbul edilməməsi səsvermədə iştirak hüququnun məhdudlaşdırılması üçün əsasdır.
- məcburi deyil, çünki seçici vəsiqəsinin qəbul edilməməsi səsvermədə iştirak hüququnun məhdudlaşdırılması üçün əsas deyil. (35.2)
- yalnız xaricdə yaşayan Gürcüstan vətəndaşları üçün məcburidir.
- cavabların heç biri düzgün deyil.

## VI Fəsil. Məntəqə seçki komissiyasının səsvermə günü fəaliyyəti

19. Elektron vasitələrdən istifadə etməklə səsvermə zamanı seçki məntəqəsi saat neçədə açılır?

- 06:45 saatda ($76^4$.2.a)
- 07:45 saatda
- 08:00 saatda
- 07:30 saatda

20. Səsvermə günü seçicilərin qeydiyyatını həyata keçirən komissiya üzvünün seçilməsi üçün püşkatmada iştirak edəcəklər:

- Məntəqə seçki komissiyasında müvafiq dairə seçki komissiyası tərəfindən seçilmiş üzvlər. ($61.2^1$)

▪ Məntəqə seçki komissiyasında partiyalar tərəfindən təyin edilmiş üzvlər.
▪ Məntəqə seçki komissiyası sədrinin müavini.
▪ Məntəqə seçki komissiyasının katibi.

21. Daşınan seçki qutusunu aparmaq üçün komissiya üzvlərinin şəxsiyyəti necə müəyyən edilir
▪ daşınan seçki qutusunu aparan komissiya üzvlərinin şəxsiyyəti püşkatma yolu ilə müəyyən edilir. (61.2.ç)
▪ daşınan seçki qutusunu aparan komissiya üzvlərinin şəxsiyyəti seçki komissiyasının üzvləri arasında adlarına görə səsvermə yolu ilə müəyyən edilir.
▪ daşınan seçki qutusunu aparan komissiya üzvlərinin kimliyi onların istəyinə uyğun olaraq müəyyən edilir.
▪ ən ağsaqqal komissiya üzvləri daşınan seçki qutusunu aparan komissiya üzvləri kimi müəyyən edilir.

22. Komissiya üzvünün püşkatması ilə müəyyən edilmiş funksiyanın müvəqqəti olaraq komissiyanın digər üzvünə verilməsi yalnız:
▪ Mərkəzi Seçki Komissiyasının sədrinin icazəsi ilə.
▪ müvafiq dairə seçki komissiyası sədrinin icazəsi ilə.
▪ Məntəqə seçki komissiyasının icazəsi ilə.
▪ Məntəqə seçki komissiyası sədrinin icazəsi ilə. (61.2.ə)

23. Püşkatma prosedurundan sonra komissiyanın tərkibinə daxil olacaq məntəqə seçki komissiyasının üzvünə funksiyaların verilməsi məsələsini kim həll edir?
▪ Məntəqə seçki komissiyasının katibi.
▪ Dairə Seçki Komissiyasının sədri.
▪ Məntəqə seçki komissiyasının sədri. (61,4)
▪ Dairə Seçki Komissiyası.

24. Elektron vasitələrdən istifadə olunmadan səsvermə zamanı seçki qutusuna qoyulacaq nəzarət vərəqələrini kim imzalayır?
• Məntəqə seçki komissiyasının sədri və birinci seçici.
• Məntəqə seçki komissiyasının birinci seçicisi və iştirak edən bütün üzvləri. (61.10)
• Məntəqə seçki komissiyasının sədri və komissiyanın katibi.
• Yalnız birinci seçici.

25. Hansı mülahizə düzgündür - seçicilərin verifikasiya cihazından çap edilmiş seçicilərin siyahısı:
• nümayiş protokolu ilə birlikdə görünən yerə asılacaq. ($76^{6}$.1.b)
• asılmayacaq və səsvermə gününün qeydlər kitabında saxlanacaq.
• səsvermə binasında olmaq hüququ olan şəxslərə veriləcək.
• məntəqə seçki komissiyasının sədrinin yanında saxlanılır.

26. Məntəqə seçki komissiyasının sədri seçki məntəqəsinin açılışından sonra komissiya üzvləri arasında funksiyaların bölgüsünə dair püşkatma keçirib.Püşkatma başa çatdıqdan sonra komissiya sədri püşkatmanın nəticələrini səsvermə gününün qeydlər kitabına qeyd edib.Komissiya sədri düzgün hərəkət edib yoxsa yox?
• bəli, çünki məntəqə seçki komissiyasının sədrinin səsvermə gününün qeydlər kitabına belə qeyd etmək hüququ var idi.

- xeyr, çünki səsvermə gününün qeydlər kitabına belə qeydlər etmək hüququna məntəqə seçki komissiyası sədrinin müavinin hüququ var idi.
- xeyr, çünki məntəqə seçki komissiyasının katibi məlumatları səsvermə gününün qeydlər kitabına daxil edir. (61.2.e)
- xeyr, çünki püşkatmanın nəticələrinə əsasən bu kitabı hazırlamağı tapşırılan komissiya üzvünün o şəxsinə səsvermə gününün qeydlər kitabına belə qeydləri etmək hüququ verilir.

27. Səsvermə seçki (səsvermə) günü səsvermə binasında keçirilir:
- 07:00 saatdan 20:00 saatadək.
- 08:00 saatdan 20:00 saatadək (60.1)
- 07:30 saatdan 20:00 saatadək
- 08:30 saatdan 20:00 saatadək

28. Seçicilərin işarələnmə yoxlamasını adətən məntəqə seçki komissiyasının hansı üzvü yoxlayır?
- Məntəqə seçki komissiyasının seçicilərin qeydiyyatı komissiyasının üzvü.
- Məntəqə seçki komissiyasının sədri.
- Məntəqə seçki komissiyasının səsvermə otağında seçici axınını tənzimləyən komissiyanın üzvü. (65.2.a; 61.2.d.a)
- Məntəqə seçki komissiyası sədrinin müavini.

29. Seçicinin təqdim etdiyi şəxsiyyəti təsdiq edən sənəddəki seçicinin qeydiyyat məlumatları seçici siyahısındakı məlumatlara uyğun gəlir, lakin seçici qeydiyyatçısı həmin seçicinin sifətininin təqdim edilmiş sənəddə və ya seçici siyahısındakı fotoşəkili ilə bir-birinə uyğun gəlmədiyini hesab edir. Aşağıdakı mülahizədən hansı düzgündür?
- seçicilərin qeydiyyatçısı seçicidən seçki məntəqəsini tərk etməyi xahiş edir.
- seçici qeydiyyatçısı qeyd olunan faktı qeyd edir və seçiciyə seçki bülleteni verir.
- seçici qeydiyyatçısı məntəqə seçki komissiyasının sədrinə müraciət edir və o, seçki qanunvericiliyi ilə müəyyən edilmiş prosedurları yerinə yetirdikdən sonra seçiciyə səsvermədə iştirak etmək hüququ verir. ($65.2^1$)
- seçici qeydiyyatçısıbu barədə məntəqə seçki komissiyasının sədrinə məlumat verir, o, seçki qanunvericiliyi ilə müəyyən edilmiş prosedurları yerinə yetirdikdən sonra seçicinin səsvermədə iştirak etmək hüququ olmadığından onun seçki məntəqəsini tərk etməsini xahiş edir.

30. Seçicilərin işarələnməsini məntəqə seçki komissiyasının hansı üzvü həyata keçirir?
- Seçicilərin qeydiyyatı komissiyasının üzvü. (65.2.b)
- Məntəqə seçki komissiyasının sədri.
- Məntəqə seçki komissiyasının səsvermə otağında seçici axınını tənzimləyən komissiyanın üzvü.
- Məntəqə seçki komissiyası sədrinin müavini.

31. seçki məntəqəsində seçicini nə vaxt işarələyirlər?
- seçki bülleteni/bülletenləri qəbul etməzdən əvvəl qeydiyyat masasında. (64.3)
- qeydiyyatdan keçdikdən və seçki bülleteni/bülletenləri götürdükdən sonra.

- seçki bülleteni/bülletenləri doldurmazdan əvvəl.
- seçki bülleteni/bülletenləri doldurulduqdan sonra, xüsusi zərfi götürdükdə

32. İşarələmə prosedurundan keçməkdən imtina edən seçicinin səsvermədə iştirak etmək hüququ var:
- yoxdur (64.3)
- Mərkəzi Seçki Komissiyasının qərarı ilə var.
- müvafiq dairə seçki komissiyasının qərarına əsasən var.
- müvafiq məntəqə seçki komissiyasının qəranı ilə var

33. Elektron vasitələrdən istifadə etməklə səsvermə nəzərdə tutulmayan seçki məntəqəsində seçici seçki belleteni/bülletenləri aldığını imzalamaqla təsdiq edir:
- qeydlər kitabında.
- qeydiyyat jurnalında.
- seçicilər siyahısında. (63. 23)
- nümayiş protokolunda.

34. Hansı mülahizə düzgündür?

Elektron vasitələrdən istifadə olunmadan səsvermənin keçirilməsi nəzərdə tutulan seçki məntəqəsində:
- seçki bülleteni/bülletenlərini verərkən onun/onların birinci səhifənin müvafiq qrafasına imza atır və məntəqə seçki komissiyasının sədri xüsusi möhürlə seçki bülleteni/bülletenlərini yoxlayır.
- seçki bülleteni/bülletenlərini verərkən onun/onların birinci səhifənin müvafiq qrafasına imza atır və məntəqə seçki komissiyasının sədr müavini xüsusi möhürlə seçki bülleteni/bülletenlərini yoxlayır.
- seçki bülleteni/bülletenlərini verərkən onun/onların birinci səhifənin müvafiq qrafasına imza atır və seçicilərin qeydiyyatçı komissiya üzvü xüsusi möhürlə seçki bülleteni/bülletenlərini yoxlayır. (65.2.b)
- seçki bülleteni/bülletenlərini verərkən onun/onların birinci səhifənin müvafiq qrafasına imza atır və məntəqə seçki komissiyasının katibi xüsüsi möhürlə seçki bülleteni/bülletenlərini yoxlayır.

35. Məntəqə seçki komissiyasının hansı üzvü seçiciyə seçicinin verifikasiya aparatından çap edilmiş seçicinin verifikasiyasını təsdiq edən qəbzini imzalamağı göstəriş edir?
- seçicilərin qeydiyyatçı komissiyasının üzvü. ($76^6$.1.f)
- komissiya sədrinin müavini.
- komissiyanın sədri.
- axını tənzimləyən komissiyanın üzvü.

36. Seçici bülleteni müstəqil olaraq doldura bilmirsə, gizli səsvermə kabinəsində ona kömək etmək üçün kimi dəvət etmək hüququ var?
- başqa seçicinin. (65.3)
- müşahidəçinin.
- seçki komissiyasının üzvü.
- gizli səsvermə kabinəsinə kiminsə kömək üçün dəvət edilməsinə icazə verilmir.

37. Seçici və ya məntəqə seçki komissiyasının üzvü seçki bülleteni/bülletenlərini korlayıbsa, o, bu barədə məlumat verməlidir:
- məntəqə seçki komissiyasının sədrinə. (65.4)
- əntəqə seçki komissiyası sədrinin müavininə.
- məntəqə seçki komissiyasının seçicilərin qeydiyyatıçı üzvünə.
- məntəqə seçki komissiyasının seçki qutusuna və xüsusi zərflərin nəzarətçisi komissiyasının üzvünə.

38. Mülahizə düzgündür yoxsa deyil?
Məntəqə seçki komissiyasının üzvləri və səsvermə binasında olmaq hüququ olan şəxslər gizli səsvermə kabinəsinə daxil olmazdan əvvəl seçicidən onun yalnız qanunla müəyyən edilmiş sayda seçki bülletenlərinin olduğunu göstərməsini xahiş etmək hüququna malikdirlər.
- bəli, seçici bu tələbə əməl etməyə borcludur. (65.5)
- bəli, lakin seçici bu tələbə əməl etməyə borclu deyil.
- xeyr, çünki bu, səsvermənin gizliliyini poza bilər.
- xeyr, seçki subyektlərinin nümayəndələrinin buna hüququ yoxdur.

39. Aşağıdakı mülahizədən hansı düzgündür?
- seçki komissiyasının üzvünün doldurulmuş seçki bülletenini açmaq və ya səsvermənin sirrini başqa yolla pozmaq hüququ yoxdur. (65.2.d)
- seçicinin özü səsvermənin sirrini saxlamaqdan imtina etmədikdə, seçki komissiyasının üzvünün doldurulmuş seçki bülletenini açmaq və bununla da səsvermənin sirrini pozmaq hüququ yoxdurş
- seçicinin özü səsvermənin sirrini saxlamaqdan imtina etmədikdə və bu, müvafiq komissiyanın sədri ilə razılaşdırılmadıqda, seçki komissiyasının üzvünün doldurulmuş səsvermə bülletenini açmaq və bununla da səsvermənin sirrini pozmaq hüququ yoxdur.
- seçki komissiyasının üzvünün doldurulmuş seçki bülletenini açmaq və bununla da səsvermənin şəffaflığını təmin etmək hüququ vardır.

40. Məntəqə seçki komissiyasının üzvü:
- doldurulmuş seçki bülletenini açmaq hüququna malikdir, əgər o, seçicinin seçki bülletenini səhv doldurduğunu hesab edirsə.
- qanunla nəzərdə tutulmuş müstəsna hallarda doldurulmuş seçki bülletenini açmaq hüququna malikdir.
- dairə seçki komissiyasının qərarı ilə doldurulmuş seçki bülletenini açmaq hüququna malikdir.
- doldurulmuş seçki bülletenini açmaq hüququ yoxdur. (65.2.d)

41. hansı mülahizə düzgündür?
- səsvermə zamanı birdən çox seçici eyni vaxtda seçki qutusunun yanına gedə bilməz. (65.2.e)
- səsvermə zamanı ikidən çox seçici eyni vaxtda seçki qutusunun yanına gedə bilməz.
- səsvermə zamanı komissiya sədrinin icazəsi olmadan eyni vaxtda birdən çox seçici seçki qutusunun yanına gedə bilməz.
- səsvermə zamanı komissiya sədrinin icazəsi olmadan eyni vaxtda ikidən çox seçici seçki qutusunun yanına gedə bilməz.

42. Seçici seçki məntəqəsində nə qədər vaxt qala bilər?
- daxil olduqdan 5 dəqiqə ərzində.
- daxil olduqdan 7 dəqiqə ərzində.
- daxil olduqdan 10 dəqiqə ərzində, lazım olduqda artırıla və ya azaldıla bilər.
- səsvermə üçün tələb olunan vaxt ərzində (60.5)

43. Seçici səsvermə prosedurlarından hansı proseduru birinci keçir?
- seçicinin markirovkasını.
- seçki bülleteninin qəbulu.
- seçicinin markirovkasının yoxlanılması. (65.2)
- seçicinin təqdim etdiyi sənəddə və seçicilər siyahısında seçicinin fotoşəklinin uyğunluğunu müəyyən etmək.

44. Səsvermə günü saat 12:00 və 17:00-da səsvermədə/seçkilərdə iştirak edən seçicilərin sayı haqqında məlumatlar daxil edilir:
- nümayiş protokolunda. ($76^6$.1.f; 65.6)
- şikayətlərin reyestrində.
- qeydiyyat jurnalında.
- cavabların heç biri düzgün deyil.

45. Səsvermə zamanı seçki qutusunun möhürünün bütövlüyü pozulduqda:
- məntəqə seçki komissiyası səsverməni dayandırır və fərmanı ilə seçki qutusunun yenidən möhürlənməsi və səsvermənin davam etdirilməsi haqqında qərar qəbul edir. (65.7)
- məntəqə seçki komissiyasının sədri öz sərəncamı ilə səsvermə prosesini dayandırır və yalnız MSK-nın fərmanı nəticəsində seçki qutusunun yenidən möhürlənməsi və səsvermənin davam etdirilməsi barədə qərar qəbul edir.
- məntəqə seçki komissiyasının sədri öz sərəncamı ilə səsvermə prosesini dayandırır və yalnız Dairə Seçki Komissiyasının fərmanı nəticəsində seçki qutusunun yenidən möhürlənməsi və səsvermənin davam etdirilməsi barədə qərar qəbul edir
- məntəqə seçki komissiyası səsvermə prosesini dayandırır və qətnaməsi ilə seçki qutusunun yenidən möhürlənməsi və səsvermənin davam etdirilməsi haqqında qərar qəbul edir.

46. Səsvermə proseduru daşınası seçki qutusu vasitəsilə keçirilir:
- səhər saat 7:00-dan axşam saat 18:00-a kimi.
- səhər saat 8:00-dan axşam saat 18:00-a kimi.
- səhər saat 9:00-dan axşam saat 19:00-ə kimi. (66.1)
- səhər saat 10:00-dan axşam saat 20:00-a kimi.

47. Səsvermə məntəqəsində səsverməni elektron vasitələrdən istifadə olunmadan keçirildiyi halda, səsvermə zamanı aparılası seçki qutusu ilə səsvermə keçirildikdə məntəqə seçki komissiyasının neçə üzvü səsvermədə iştirak edir?
- seçki komissiyasının 1 üzvü.
- seçki komissiyasının 2 üzvü. (66.4)

- seçki komissiyasının 3 üzvü.
- seçki komissiyasının 4 üzvü.

48. Elektron vasitələrdən istifadə etmədən səsvermə keçirildikdə:
- daşınan seçki qutusunu müşayiət edən seçki komissiyasının üzvləri seçki bülletenini və xüsusi zərfləri özləri imzalayı və xüsusi möhürlə təsdiq edirlər.
- daşınan seçki qutusunu müşayiət edən seçki komissiyasının üzvlərinə sədr tərəfindən xüsusi zərflər və seçici axınını tənzimləyən komissiyanın üzvü tərəfindən imzalanmış lazımi sayda seçki bülleteni verilir.
- daşınan seçki qutusunu müşayiət edən seçki komissiyasının üzvlərinə sədr tərəfindən xüsusi zərflər və seçicilərin qeydiyyatçısı tərəfindən imzalanmış və xüsusi möhürlə möhürlənmiş lazımi sayda seçki bülleteni verilir. (66.3)
- heç bir mülahizə düzgün deyil.

49. Səsvermə binasında olmaq hüququ olan şəxslərdən daşınan seçki qutusu vasitəsilə səsvermədə iştirak edən nəzarətçilərin şəxsiyyəti necə müəyyən edilir?
- müşahidəçilərin şəxsiyyəti səsvermə zamanı seçki məntəqəsində iştirak etmək hüququ olan şəxslər arasında gizli səsvermə yolu ilə müəyyən edilir.
- müşahidəçilərin şəxsiyyəti səsvermə zamanı seçki məntəqəsində iştirak etmək hüququ olan şəxslər arasında adlıq səsvermə yolu ilə müəyyən edilir.
- müşahidəçilərin şəxsiyyəti məntəqə seçki komissiyasının sədri tərəfindən müəyyən edilir.
- müşahidəçilərin şəxsiyyəti səsvermə zamanı seçki məntəqəsində iştirak etmək hüququ olan şəxslər arasında öz istəklərinə görə müəyyən edilir. (66.4)

50. Aşağıdakı mülahizədən hansı düzgündür:
- daşınan seçki qutusu vasitəsi ilə səsvermə prosesi seçicinin razılığı olduqda seçicinin markirovkalanma prosedurunu nəzərdə tutur.
- daşınan seçki qutusu vasitəsi ilə səsvermə prosesi seçicinin markirovkalanma prosedurunu yalnız müstəsna hallarda nəzərdə tutur.
- daşınan seçki qutusu vasitəsi ilə səsvermə prosesi seçicinin markirovkalanma prosedurunu nəzərdə tutur. (66.7)
- daşınan seçki qutusu vasitəsi ilə səsvermə prosesi seçicinin markirovkalanma prosedurunu nəzərdə tutmur.

51. Hansı mülahizə düzgündür?
- daşınan seçki qutusu vasitəsilə səsvermə səsvermə günü saat 19:00-da başa çatır və səsvermənin sonunda daşınan seçki qutusunun açılan yeri elə möhürlənir ki, möhür zədələnmədən onu açmaq mümkün olmasın (66.1; 66.10).
- daşınan seçki qutusu ilə səsvermə səsvermə günü saat 19:00-da başa çatır və səsvermə başa çatdıqdan sonra daşınan seçki qutusu artıq möhürlənmir.
- daşınan seçki qutusu vasitəsilə səsvermə səsvermə günü saat 18:00-da başa çatır və səsvermənin sonunda daşınan seçki qutusunun açılan yeri elə möhürlənir ki, möhür zədələnmədən onu açmaq mümkün olmasın.
- daşınan seçki qutusu vasitəsilə səsvermə səsvermə günü saat 20:00-da başa çatır və səsvermənin sonunda daşınan seçki qutusunun açılan yeri elə möhürlənir ki, möhür zədələnmədən onu açmaq mümkün olmasın.

52. Seçki Məcəlləsinə görə, səsvermə günü daşınan seçki qutusu saat neçədə seçki məntəqəsinə qaytarılmalıdır?
- 20 saatdan gec olmayaraq (66.1).
- 21 saatdan gec olmayaraq.
- 19 saatdan gec olmayaraq.
- 18 saatdan gec olmayaraq

53. Məntəqə seçki komissiyası gediş-gəliş çətin olan yerlərdə yaradılmış seçki məntəqələrində səsvermənin başa çatdığını nə vaxt elan edir?
- bütün seçki məntəqələrində səsvermə eyni vaxtda başa çatdığından saat 20:00-da.
- seçici siyahısına daxil edilmiş bütün seçicilər səsvermədə iştirak etdikdə saat 20.00-dək istənilən vaxt. (60.6)
- seçicilər siyahısına daxil edilmiş seçicilərin yarıdan çoxu səsvermədə iştirak etdikdə saat 20.00-dək istənilən vaxt.
- Getmək çətin olan yerlərdə seçki məntəqələri yaradılmır.

54. Səsvermə binası bağlanana qədər çatdırıb səs verə bilməyən seçicilərlə bağlı məntəqə seçki komissiyası hansı qərar qəbul etməlidir?
- seçicilər səs vermədən binanı tərk etməlidirlər.
- komissiya üzvlərindən biri növbədə duran seçicilərin ad və soyadlarını qeyd etməli, yalnız onların səsvermədə iştirakına icazə verilməlidir (65.8).
- səsvermənin başa çatması anında yalnız növbədə duran seçicilərin iştirak edəcəyi ilə əlaqədar komissiya üzvlərinin səs çoxluğu ilə ertəsi gün səsvermənin keçirilməsi haqqında qərar qəbul edilməlidir.
- seçicilərə növbədə durmağı və ya növbəti gün səs vermək üçün gəlməyi seçmələrinə görə icazə verilməlidir.

55. Məntəqə seçki komissiyasının sədri səslərin hesablanması üçün xüsusi elektron aparatından ilkin nəticələr çap edildikdən sonra:
- məntəqə seçki komissiyası tərəfindən səslərin hesablanması və səsvermə nəticələrinin yekun protokolunun tərtib edilməsi prosedurlarını davam edilir. ($76^6$.1.g,ğ)
- səslərin hesablanması və səsvermə nəticələrinin yekunlaşdırma proseduru başa çatmış hesab olunur.
- dairə seçki komissiyası tərəfindən səslərin hesablanması və səsvermənin nəticələrinin yekun protokolunun tərtib edilməsi prosedurlarını davam edilir.
- səslərin hesablanması və səsvermənin nəticələrinin yekun protokolunun tərtibi prosedurları səslərin sayılma mərkəzlərində davam etdirilir.

56. Məntəqə seçki komissiyasının sədri səsvermə başa çatdıqdan sonra püşkatma yolu ilə neçə sayıcı seçməlidir?
- 3 sayıcıdan az olmayaraq (67.1)
- 3 sayıcıdan çox olmayaraq.
- 2 sayıcıdan az olmayaraq.
- 2 sayıcıdan çox olmayaraq.

57. Hansı mülahizə düzgündür?

- səsvermə başa çatdıqdan sonra müşahidəçilər bülletenlərin hesablanması prosesinə nəzarət etmək üçün bərabər razılaşma yolu ilə öz üzvləri arasından 3-dən çox olmayan müşahidəçi seçəcəklər.
- səsvermə başa çatdıqdan sonra müşahidəçilər bülletenlərin hesablanması prosesinə nəzarət etmək üçün bərabər razılaşma yolu ilə öz üzvləri arasından 4-dən çox olmayan müşahidəçi seçəcəklər.
- səsvermə başa çatdıqdan sonra müşahidəçilər bülletenlərin hesablanması prosesinə nəzarət etmək üçün bərabər razılaşma yolu ilə öz üzvləri arasından 2-dən çox olmayan müşahidəçi seçəcəklər. (67.1)
- müşahidəçilərin bülletenlərin hesablanması prosesini müşahidə etmək üçün öz aralarından müşahidəçilər təyin etmək hüquqları yoxdur.

58. Hansı mülahizə düzgündür?
- məntəqədəki seçki subyektlərinin nümayəndələri həqiqi və/və ya ləğv edilmiş bülletenlərin hesablanması prosesində iştirak etmirlər.
- komissiyanın sədri seçki məntəqəsində olan seçki subyektlərinin nümayəndələri arasından hesablanası həqiqi və (və ya) ləğv edilmiş bülletenlərin hesablanması prosesində iştirak edəcək birdən çox olmayan nümayəndəni püşkatma yolu ilə seçir.
- komissiyanın sədri seçki məntəqəsində olan seçki subyektlərinin nümayəndələri arasından hesablanası həqiqi və (və ya) ləğv edilmiş bülletenlərin hesablanması prosesində iştirak edəcək 2-dən çox olmayan nümayəndəni püşkatma yolu ilə seçir. (67.2)
- komissiyanın sədri seçki məntəqəsində olan seçki subyektlərinin nümayəndələri arasından hesablanası həqiqi və (və ya) ləğv edilmiş bülletenlərin hesablanması prosesində iştirak edəcək 3-dən çox olmayan nümayəndəni püşkatma yolu ilə seçir

59. İstifadə olunmamış və korlanmış, ayrıca paketlərdə cildlənmiş və möhürlənmiş seçki bülletenlərini kim imzalayır?
- yalnız məntəqə seçki komissiyasının sədri.
- hesablayıcılar və məntəqə seçki komissiyasının sədri. (67.5)
- yalnız hesablayıcılar.
- müşahidəçilər.

60. Əgər seçki qutusunda möhürün bütövlüyü pozulubsa, səsvermə nəticələrini yekunlaşdırmaq mümkündürmü?
- xeyir, əgər seçki qutusunda möhürün bütövlüyü pozulubsa, səsvermə nəticələrinin yekunlaşdırılması mümkün deyil.
- xeyir, əgər seçki qutusunda möhürün bütövlüyü pozulubsa, o dərhal Yuxarı Dairə Seçki Komissiyasına verilməlidir.
- bəli, əgər seçki qutusunda möhürün bütövlüyü pozulubsa, lakin Seçki Komissiyası qanunun tələblərinin pozulmadığını hesab edirsə, Məntəqə Seçki Komissiyasının sərancamı ilə səsvermə nəticələrini yekunlaşdırma prosesi davam edir. (68.2)
- bəli, seçki qutusunda möhürün bütövlüyünün pozulması səsvermə nəticələrinin yekunlaşdırılmasına mane olmur.

61. Hansı mülahizə düzgündür?
- seçki məntəqəsi bağlandıqdan sonra əvvəlcə xüsusi qutu, sonra daşınan seçki qutusu açılır.
- seçki məntəqəsi bağlandıqdan sonra əvvəlcə daşınan seçki qutusu, sonra isə əsas seçki qutusu açılır. (68.4)
- seçki məntəqəsi bağlandıqdan sonra əvvəlcə əsas seçki qutusu, sonra isə daşınan seçki qutusu açılır.
- seçki qutularının açılması qaydası müəyyən edilməyib.

62. Daşınan seçki qutusunda nəzarət vərəqinin olmadığı halda nə baş verir?

- bütün xüsusi zərf və seçici bülleteni paket kimi bağlanılır, "batil edilmiş" yazılır və seçki məntəqəsində səsvermə və səs sayma prosedurlarının bitdiyindən sonra yuxarı dairə seçki komisiyasına verilir. (68.4)
- bütün xüsusi zərf və seçici bülleteni paket kimi bağlanılır, "ləğv edilmiş" yazılır və seçki məntəqəsində səsvermə və səs sayma prosedurlarının bitdiyindən sonra yuxarı dairə seçki komisiyasına verilir.
- bütün xüsusi zərf və seçici bülleteni paket kimi bağlanılır, "batil edilmiş" yazılacaq və seçki məntəqəsində səsvermə və səs sayma prosedurlarının bitdiyindən sonra MSK-ya verilir.
- bütün xüsusi zərf və seçici bülleteni paket kimi bağlanılır, "ləğv edilmiş" yazılır və seçki məntəqəsində səsvermə və səs sayma prosedurlarının bitdiyindən sonra MSK-ya verilir.

63. Əsas seçki qutusuna qoyulmuş nəzarət vərəqi ilə məntəqə seçki komissiyasının sədrinin saxladığı nəzarət vərəqi arasında fərqin aşkarlanması nə ilə nəticələnəcək?

- bütün xüsusi zərflər və seçki bülletenləri qablaşdırılacaq, möhürlənəcək, müvafiq protokol tərtib edilərək dərhal yuxarı dairə seçki komissiyasına təhvil veriləcək. (68.5)
- bütün xüsusi zərflər və seçki bülletenləri qablaşdırılacaq, möhürlənəcək, müvafiq protokol tərtib edilərək dərhal seçki subyektinin nümayəndələrinə təhvil veriləcək.
- bütün xüsusi zərflər və seçki bülletenləri məhv ediləcək.
- bütün xüsusi zərflər və seçki bülletenləri qablaşdırılacaq, möhürlənəcək, müvafiq protokol tərtib edilərək dərhal MSK-yə təhvil veriləcək.

64. Elektron vasitələrdən istifadə olunmadan səsvermənin aparıldığı seçki məntəqəsində müəyyən edilmiş nümunənin seçki bülleteni aşağıdakı hallarda etibarsız sayılır:

- Mərkəzi Seçki Komissiyasının möhürü ilə təsdiq olunmayıb
- Mərkəzi Seçki Komissiyasının sədrinin imzası ilə təsdiq olunmayıb.
- Seçicilərin qeydiyyatçısının imzası və xüsusi möhürü ilə təsdiq olunmayıb. (69.3.a)
- Məntəqə seçki komissiyasının möhürü və seçki bülletenini imzalayan komissiyanın iki üzvünün imzası ilə təsdiq olunmayıb.

65. Səsvermənin elektron vasitələrdən istifadə olunmadan keçirildiyi seçki məntəqəsində aşağıdakılardan hansı seçki bülleteni etibarsız hesab etmək üçün əsas deyil?

- seçki bülleteni seçicilərin qeydiyyatçısının imzası və xüsusi möhürü ilə təsdiq edilmədikdə.
- əgər xüsusi zərfdə müəyyən edilmiş saydan çox seçki bülleteni aşkar edildikdə.
- əgər seçicinin hansı seçki subyektinə səs verdiyini müəyyən etmək mümkün olmadıqda.
- əgər xüsusi zərf müəyyən olunmuş nümunədədir. (69.3)

66. Elektron vasitələrdən istifadə olunmadan səsvermənin keçirildiyi seçki məntəqəsində hansı halda seçki bülleteni batil sayılır?

- əgər xüsusi zərfdə müəyyən edilmiş sayda seçki bülletenləri aşkar edilərsə.
- əgər seçki bülleteni müəyyən edilmiş nümunədə xüsusi zərflə seçki qutusuna yerləşdirilib.
- əgər seçki bülleteni seçicilərin qeydiyyatçısının imzası və xüsusi möhürü ilə təsdiq edilib.
- əgər seçki bülleteni başqa seçki məntəqəsi üçün nəzərdə tutulmuşdusa. (69.3.c)

67. Səsvermənin elektron vasitələrdən istifadə olunmadan keçirildiyi seçki məntəqəsində səslərin hesablanması zamanı şübhəli hesab edilən bülletenlərin həqiqiliyi məsələsini həll edir:

- Mərkəzi Seçki Komissiyası səsvermə ilə.
- Müvafiq dairə seçki komissiyası səsvermə ilə
- Məntəqə seçki komissiyası səsvermə ilə. (69.5)
- Məntəqə seçki komissiyasının sədri.

68. Elektron vasitələrdən istifadə etməklə seçkilərin keçirildiyi seçki məntəqələrində müəyyən edilmiş seçki bülleteni aşağıdakı hallarda batil hesab edilmir, əgər ki:

- birdən çox seçki subyektinin adının qarşısındakı müvafiq dairə rənglənib və/və ya işarələnibsə.
- hər hansı bir seçki subyektinin adının qarşısındakı müvafiq dairə rənglənməyib və/və ya işarələnməyibsə.
- yalnız bir seçki subyektinin adının qarşısındakı müvafiq dairə rənglənib və/və ya işarələnib. ($76^4$.5)
- bütün cavablar düzgündür.

69. Elektron vasitələrdən istifadə etmədən səsvermə keçirilərkən hansı əsaslandırma düzgündür?

- hər 10 seçki bülleteni metal bağlayıcı ilə bağlanılır və hər bir dəstin necə tam, edləcə də natamamın üstünə seçki bülletenlərinin sayı yazılır. (69.9)
- hər 20 seçki bülleteni metal bağlayıcı ilə bağlanılır və hər bir dəstin necə tam, edləcə də natamamın üstünə seçki bülletenlərinin sayı yazılır.
- hər 15 seçki bülleteni metal bağlayıcı ilə bağlanılır və hər bir dəstin necə tam, edləcə də natamamın üstünə seçki bülletenlərinin sayı yazılır.
- hər 5 seçki bülleteni metal bağlayıcı ilə bağlanılır və hər bir dəstin necə tam, edləcə də natamamın üstünə seçki bülletenlərinin sayı yazılır

70. Hansı seçki məntəqəsinin seçki bülletenləri rəqəmsal formata keçəcək?

- seçki bülletenləri üçün elektron sayma aparatının yerləşdirilmədiyi seçki məntəqəsinin seçki bülletenləri ($76^7$.1)
- seçki bülletenləri üçün elektron sayma aparatının yerləşdiriləd iyi seçki məntəqəsinin seçki bülletenləri.
- seçki bülletenləri üçün elektron sayma maşınının quraşdırılıb-qurulmamasından asılı olmayaraq bütün seçki məntəqələrinin seçki bülletenləri.
- heç bir seçki məntəqəsinin seçki bülletenləri rəqəmsal formata keçirilə bilməz.

## VII Fəsil. Məntəqə seçki komissiyası tərəfindən səsvermənin nəticələrini yekunlaşdıran protokolun tərtib edilməsi

71. Səsvermə və seçkilərin nəticələri harada əks etdirilməlidir?

- yalnız MSK-nın səsvermə və seçki nəticələrinin yekun protokolunda.
- yalnız dairə seçki komissiyalarının səsverməsinin və seçkilərin nəticələrinin yekun protokolunda.
- yalnız məntəqə seçki komissiyalarının səsverməsinin və seçkilərin nəticələrinin yekun protokollarında.
- MSK-nın, dairə və məntəqə seçki komissiyalarının səsvermə və seçkilərin yekun protokollarında. (70.1)

72. Məntəqə seçki komissiyası tərəfindən tərtib edilmiş səsvermənin nəticələrini əks etdirən protokol aşağıdakılar tərəfindən imzalandıqda hüquqi qüvvəyə minir:

- Məntəqə seçki komissiyası üzvlərinin əksəriyyəti. ($71.6^1$)

- Məntəqə seçki komissiyasının ən azı beş üzvü.
- Məntəqə seçki komissiyasının sədri və katibi.
- Məntəqə seçki komissiyasının azı yeddi üzvü.

73. Hansı mülahizə doğrudur ?
- Məntəqə seçki komissiyasının üzvü səsvermənin nəticələrinin yekun protokolu imzalamağa borcludur, yalnız protokolda göstərilən məlumatlar ilə razılaşmadıqda isə protokola yazılı xüsusi rəy əlavə etmək hüququna malikdir. (71.4; 71.5)
- Məntəqə seçki komissiyasının üzvü səsvermənin nəticələrinin yekun protokolunu imzalamağa borcludur, yalnız protokolda göstərilən məlumatlar ilə razılaşmadıqda isə başqa protokol tərtib etməlidir.
- Məntəqə seçki komissiyasının üzvü protokolda göstərilən məlumatlar ilə razılaşmadıqda, səsvermənin nəticələrinin yekun protokolunu imzalamamaq hüququna malikdir.
- Məntəqə seçki komissiyasının üzvü protokolda göstərilən məlumatlar ilə razılaşmadıqda, səsvermənin nəticələrinin yekun protokolunu imzalamamağa borcludur.

74. Əgər, yekun protokolunun doldurulması zamanı səhvə yol verildikdə, seçki komissiyası:
- düzəliş olunmuş protokol tərtib etməlidir. (70.4)
- yekun protokolunun ikinci nüsxəsini tərtib etməlidir.
- yekun protokolundakı məlumatlarda düzəliş etməlidir.
- izahat protokolu tərtib etməlidir.

75. Hansı mülahizə doğrudur?
- düzəliş protokolu ilə razılaşmayan komissiya üzvü düzəliş protokolunu imzalamaqdan çəkinə bilər.
- deçki komissiyasının hərəkətinin qanuniliyinə şübhə edən komissiya üzvü düzəliş protokolunu imzalamaqdan çəkinə bilər.
- komissiyanın iclasında iştirak edən komissiyanın bütün üzvləri düzəliş protokolunu imzalamağa borcludurlar. (70.4)
- qanunda düzəliş protokolunun imzalanması öhdəliyi nəzərdə tutulmur.

## VIII Fəsil. Seçki məntəqəsində olmaq hüququ olan şəxslər və onların səlahiyyətləri

76. Səsvermə binasında olma hüququ var:
- MSK, dairə və məntəqə seçki komissiyalarının üzvləri.
- MSK və Dairə Seçki Komissiyalarının nümayəndələri.
- müvafiq seçki komissiyasında qeydiyyatdan keçmiş mətbuat və digər kütləvi informasiya vasitələrinin nümayəndələri.
- bütün cavablar düzgündür. (8.16)

77. Aşağıdakıların səsvermə binasında olmaq hüququ yoxdur:
- müvafiq komissiyada akkreditə olunmuş media nümayəndəsinin.
- müvafiq komissiyada qeydə alınmış seçki subyektlərinin nümayəndəsinin.
- seçkilərdə iştirak edən namizədinin. (8.16)
- müşahidəçinin.

78. Seçki günü eyni vaxtda seçki məntəqəsində neçə mətbuat və digər kütləvi informasiya vasitələrinin və həmin təşkilatların nümayəndələri ola bilər?

- dörddən çox olmamalıdır.
- ikidən çox olmamalıdır (44.5)
- üçündən çox olmamalıdır
- birdən çox olmamalıdır.

79. Eyni yerli müşahidəçi təşkilatların seçki məntəqəsində eyni vaxtada aşağıdakılardan çox olmamaq hüququ var:

- bir müşahidəçinin (39.3)
- iki müşahidəçinin
- dörd müşahidəçinin
- beş müşahidəçinin

80. Beynəlxalq təşkilat bir seçki məntəqəsində seçkiləri neçə beynəlxalq müşahidəçi vasitəsilə izləyir?

- üçdən çox olmayan beynəlxalq müşahidəçi vasitəsilə.
- beşdən çox olmayan beynəlxalq müşahidəçi vasitəsilə.
- ondan çox olmayan beynəlxalq müşahidəçi vasitəsilə.
- ikidən çox olmayan beynəlxalq müşahidəçi vasitəsilə. (39.6)

81. Səsvermə məntəqəsində kimliyini və statusunu bildirən döş nişanlarını kim taxmalıdır?

- seçki komissiyasının üzvi.
- müşahidəçilər.
- seçki komissiyasının sədri, sədr müavini və katib.
- səsvermə binasında olmaq hüququ olan bütün şəxslər. (8.17)

82. Müşahidəçinin nəyə hüququ yoxdur?

- seçicilərin iradəsini azad ifadə etməsinə təsir etmək.
- seçicilərin hər hansı seçki subyektinin lehinə təşviqat aparmaq.
- hər hansı bir seçki subyektinin simvol və işarələrini daşımaq.
- bütün cavablar düzgündür. (41.2)

83. Müşahidəçinin aşağıdakılardan hansını etmək hüququ var?

- hər hansı bir seçki subyektinin simvollarını daşımaq.
- səsvermə günü döş nişanı olmadan səsvermə binasında olmaq.
- səsvermə günü istənilən vaxt təqdim edən təşkilatın qeydə alınmış nümayəndəsi ilə əvəz edilə bilər. (41.1.c)
- seçiciləri istənilən seçki subyektini dəstəkləməyə çağırmaq.

84. Səsvermə binasında olmaq hüququ olan şəxslərin səsvermə binasında foto və video çəkmək hüququ varmı?

- bəli, onların həm səsvermə kabinəsidə, həm də onun kənarında foto və video çəkmək hüququ var.
- xeyr, Seçki Məcəlləsinə əsasən heç kimin səsvermə binasında foto və video çəkməyə haqqı yoxdur.

- bəli, kabinə istisna olmaqla, səsvermə binasında olmaq hüququ olan şəxslər seçki məntəqəsində foto və video çəkə bilərlər. (8.25)
- xeyr, səsvermə binasında yalnız MSK-nın, dairə və məntəqə seçki komissiyalarının üzvlərinin foto və video çəkmək hüququ var.

85. Hansı mülahizə doğru deyil?
- səsvermə günü seçki məntəqəsində seçkiqabağı təşviqatın aparılması qadağan edilmir.
- səsvermə günü səsvermə binasında seçkiqabağı təşviqatın aparılması, əgər aksiyanın partiya tərəfindən təyin edilmiş məntəqə seçki komissiyasının üzvü tərəfindən həyata keçirilməsinə qadağa qoyulmur.
- səsvermə günü seçki məntəqəsində seçkiqabağı təşviqatın aparılması qadağandır. (45.11)
- səsvermə günü səsvermə binasında, əgər aksiya partiyanın təyin etdiyi nümayəndə tərəfindən həyata keçirilərsə, seçkiqabağı təşviqatın aparılması qadağan edilmir.

## IX Fəsil.Məntəqə seçki komissiyası üzvünün/rəhbərinin məsuliyyət tədbirləri

86. Məntəqə seçki komissiyasının üzvünə qarşı intizam pozuntusuna görə aşağıdakı intizam məsuliyyəti tədbiri tətbiq edilə bilər:
- qeyd.
- xəbərdarlıq.
- əmək haqqının /əmək haqqının bir hissəsinin tutulması.
- bütün cavablar düzgündür. (28.2)

87. Məntəqə seçki komissiyasının üzvləri/komissiyanın rəhbəri aşağıdakılara görə məsuliyyət daşıya bilərlər:
- səsvermə binasında olmaq hüququna malik olan şəxsin qeydlər kitabına qeyd etməsinə maneçilik törətdiyinə görə.
- yerli/beynəlxalq müşahidəçilərin, seçki subyektlərinin və KİV nümayəndələrinin Seçki Məcəlləsi ilə müəyyən edilmiş hüquqlarının məhdudlaşdırılması və ya onların fəaliyyətinə mane olması səbəbindən.
- Seçki Məcəlləsinin tələbləri pozulmaqla seçkiqabağı təşviqatda iştiraka görə.
- bütün cavablar düzgündür. (79, 90, 91)